Vətəndaşların qəbulu prosesinin səmərəli təşkil edilməsi, onların hüquqlarının qorunmasının təmin edilməsi, həmçinin bu işə nəzarətin artırılması məqsədi ilə “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununu, “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanını və “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. “Təhsil Nazirliyində vətəndaşların qəbulu Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Nazirliyin bütün şöbə və idarələrinin, ali və orta ixtisas təhsili müəssisələrinin, yerli təhsil şöbələrinin (idarələrinin) rəhbərləri və aidiyyəti işçiləri fəaliyyətlərində bu Qaydaların tam və düzgün tətbiq olunmasını təmin etsinlər.

3. Təhsil Nazirliyinin, ali və orta ixtisas təhsili müəssisələrinin və yerli təhsil şöbələrinin vəzifəli şəxsləri tərəfindən bu Qaydalara 1 və 2 nömrəli əlavə ilə müəyyən olunmuş vətəndaşların qəbulu qrafikinə ciddi riayət olunsun.

4. İnformasiya şöbəsinə tapşırılsın ki:

4.1. qəbula yazılan vətəndaşın yazılı və elektron formada uçotunu aparsın;

4.2. qəbul qrafikinin Nazirliyin qəbul otağında hər kəs üçün aydın görünən yerdə asılmasını təşkil etsin;

4.3. əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını, rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini C.Bayramova həvalə edilsin.

Əsas: Azərbaycan Respublikasının təhsil naziri M.Cabbarovun 17.10.2013-cü il tarixli tapşırığı.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***23 dekabr 2013-cü il***

***№928***

---

**Əlavələr:**

Təhsil Nazirliyində vətəndaşların qəbulu Qaydası

Təhsil Nazirliyində vətəndaşların qəbulu Qaydasına əlavələr